9 oktyabr 2015-ci il tarixində Yaponiya hökümətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində İsmayıllı rayon İcra Hakimiyyətinin Başçısı, cənab Mirdaməd Sadıqovun iştirakı ilə İsmayıllı Rayon İcra Hakimiyyətinin binasında aşağıdakı layihə üzrə İmzalanma Mərasimi keçirilmişdir.

## "İsmayıllının Kürdmaşı kəndində su təchizatı sisteminin inşası" layihəsi

Layihənin əsas məqsədi Kürdmaşı kəndində yeni su təchizatı sistemini inşa etməklə kənd sakinlərinin suya olan tələbatını qismən də olsa ödəməkdir. Sözügedən layihənin ümumi dəyəri **90,646 ABŞ dolları təşkil edir.**

**Səfir Azərbaycan dilində nitq söylədi**



**Qrant müqaviləsinin imzalanması**



**Hal-hazırki su sisteminin boruları köhnəldikdən, kənd sakinləri su azlığından əziyyət çəkirlər**



**Yağış damcılarından yığılan su sakinlər tərəfindən istifadə olunur**

